AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# ONLAYN KASSANIN TƏTBİQİ

BAKI – 2025

Bu buklet vasitəsi ilə Azərbaycan Respublikasının ərazisində tətbiqinə icazə verilən onlayn nəzarət-kassa aparatlarının (bundan sonra e-kassa) tətbiq sahələri, mahiyyəti, iştirakçıları, növləri, meyarları, istifadə xüsusiyyətləri, dövlət reyestrinə daxil edilməsi, nəzarət mexanizm qurğusu, necə əldə edilməsi, qeydiyyatı və qeydiyyatdan çıxarılması, yenisi ilə əvəz edilməsi, məsuliyyət tədbirləri və əlaqə vasitələri barədə məlumatları əldə etmək olar.



# E-kassanı kimlər tətbiq etməlidir?

**01.01.2023-cü il tarixdən** etibarən Azərbaycan Respublikasının bütün ərazisində aşağıdakı fəaliyyət növləri istisna olmaqla, **pərakəndə ticarət, ictimai iaşə fəaliyyəti, yerləşmə vasitələri hesab edilən mehmanxana (hotel) və mehmanxana tipli digər obyektlər, tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər, bərbərxanalar, gözəllik salonları və kosmetoloji mərkəzlər tərəfindən göstərilən xidmətlər üzrə pul hesablaşmaları** Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilin meyarlara cavab verən və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə real vaxt rejimdə qoşulmuş **e-kassa vasitəsilə həyata keçirilməlidir:**

- qəzet və jurnalların satışı (belə satış dövriyyəsinin ümumi dövriyyədəki payı 50 faizdən çox olduqda);
- kənd təsərrüfatı məhsullarının bazarlarda, yarmarkalarda və səyyar qaydada satışı;
- səyyar, bazarlarda və digər kütləvi ticarət yerlərində piştaxtadan, avtomobildən və qoşqu vasitələrindən pərakəndə satış fəaliyyəti;
- qiymətli kağızların və biletlərin satışı;
- elektrik enerjisi, qaz, su, isti su təchizatı və mərkəzi qızdırma sistemi obyektlərinin fəaliyyəti;
- fərdi qaydada göstərilən bərbər fəaliyyəti.

# E-kassa nədir?

E-kassa malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı aparılan pul hesablaşmaları barədə məlumatların toplanması, emal edilməsi, saxlanması və internet vasitəsilə ötürülməsi imkanına malik olan elektron avadanlıq və kompüter sistemləridir:

- **proqram təminatlı nəzarət-kassa aparatları** – hesablama qurğusuna malik, proqram təminatı və əməliyyat sistemi ilə təchiz edilmiş avadanlıq;
- **proqram təminatlı portativ tipli nəzarət-kassa aparatları** – hesablama qurğusuna malik, proqram təminatı və əməliyyat sistemi ilə təchiz edilmiş, öz enerji mənbəyinə malik olan və müvəqqəti olaraq xarici enerji mənbəyi olmadan işləyə bilən elektron avadanlıq;
- **proqram kassası** – malların təqdim edilməsi (xidmətlərin göstərilməsi) zamanı aparılan əməliyyatlar üçün nəzərdə tutulmuş xüsusi proqram təminatı və ya proqram-aparat kompleksi.

▪ Proqram təminatlı portativ tipli e-kassaların öz enerji mənbəyi oduğundan, xarici enerji mənbələrinə qoşulmadan ən azı 4 saat ərzində davamlı fəaliyyəti göstərə bilir. Bunun üçün də e-kassaların bu növü avtonom enerji mənbəyi ilə təchiz olunmalıdır.

▪ E-kassa vahid şəkildə işləyən iki hissədən – proqram kassası və nəzarət mexanizmi qurğusundan ibarətdir.

▪ E-kassa hüquqi şəxslərə və fərdi sahibkarlara, malların satışı və xidmətlərin təqdim edilməsi zamanı pul hesablaşmaları üzrə kassa əməliyyatlarının aparılması imkanını yaradır.

- İstifadə edildiyi yerdən asılı olaraq, e-kassaların funksionallığında müəyyən fərqliliklər ortaya çıxır. Məsələn, yanacaqdoldurma məntəqələrində istifadə üçün nəzərdə tutulmuş e-kassalar məbləğin hesablanmasını və satış çekinin formalaşdırılmasını neft məhsullarının, mayeləşdirilmiş karbohidrogen qazların çıxışı ilə eyni vaxtda həyata keçirməsini təmin etməlidir.

- Bununla yanaşı, istehlakçıya masa arxasında xidmət göstərilən və hesab verilən ictimai iaşə obyektlərində istifadə üçün nəzərdə tutulmuş e-kassalar məbləğin hesablanmasını və satış çekinin yaradılmasını sifarişin qəbulu və təqdim olunması ilə eyni anda həyata keçirməlidir.

- E-kassa vergi ödəyicisi haqqında məlumatların sertifikatdan ötürülərək çekin üzərində çap olunmasını təmin etməlidir. Çekin formalaşdırılması üzrə əməliyyat yalnız unikal idendifikatorun (fiskal İD) uğurla alınmasından sonra bitmiş hesab edilməlidir.

- Bununla belə, e-kassa dəyişilməyən zavod və ya seriya nömrəsinə malik olmalı və istifadəçisinin identifikasiyasını, həmçinin e-kassanın işə düşməsi üçün nəzarət mexanizmi qurğularının PIN kodunun yığılması imkanını təmin etməlidir.

# E-kassa sisteminin iştirakçıları kimlərdir?

E-kassanın istismarında, o cümlədən qeydiyyatı və servis texniki xidmətində iştirak edən subyektlərə aşağıdakılar aiddir:

- E-kassa operatorları (e-kassa operatoru);
- E-kassa istifadəçiləri (e-kassa istifadəçisi);
- Dövlət Vergi Xidməti tərəfindən müsabiqə əsasında seçilən hüquqi şəxs;
- NKA üzrə sahələrarası ekspert komissiyası (komissiya);
- Dövlət Vergi Xidməti;
- Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti.

**Məlumatların onlayn ötürülməsi:** E-kassa vasitəsilə aparılan əməliyyatlar (malların (xidmətlərin) təqdim olunması) zamanı həyata keçirilən hesablaşmalar barədə məlumatlar Dövlət Vergi Xidmətinin informasiya sistemləri bazasına ötürülür. E-kassa tərəfindən fiskal məlumatları özündə birləşdirərək kriptoqrafik mühafizə vasitəsilə formalaşdırılan və üzərində unikal identifikator (fiskal İD) qeyd edilən çek Dövlət Vergi Xidmətinin informasiya sistemləri bazasına ötürülür.

E-kassa tərəfindən formalaşdırılan yeni çek formasının üzərində aşağıdakı əsas məlumatlar əks olunmalıdır:

- vergi ödəyicisinin adı;
- VÖEN;
- çekin vurulma tarixi və saatı;
- təsərrüfat subyektinin (obyektinin) adı, vergi orqanındakı uçot kodu və yerləşdiyi ünvan;

- malın və ya xidmətin (işin) adı, ölçü vahidi, miqdarı, bir vahidinin qiyməti və yekun məbləğ (o cümlədən ƏDV-nin və ya sadələşdirilmiş verginin dərəcəsi və məbləği);
- cari növbə ərzində vurulmuş çeklərin sayı və çekin nömrəsi;
- e-kassanın markası və zavod nömrəsi;
- e-kassanın fiskal rejiminin nişanı (əlaməti);
- malın sürətli məlumat kodu (Quick Response Code);
- ödənilmiş məbləğ;
- avans (beh) ödənişi çekində avans (beh) üzrə ödənilmiş məbləğ;
- müştəriyə qaytarılan məbləğ (malın və ya xidmətin (işin) dəyərindən artıq ödənilən hissəsi üzrə);
- nisyə satış zamanı ödəniləcək məbləğ (qalıq borc);
- ödənişin forması və üsulu ( nağd, nağdsız, bonus, hədiyyə kartı);
- çekin növü (satış, geri qaytarma ləğvetmə, avans (beh) ödənişi, nisyə satış üzrə ödəniş);
- nəzarət mexanizmi qurğusunun qeydiyyat nömrəsi;
- geri qaytarma, ləğv etmə və satış (avans üzrə) çeklərində həmin çeklərlə bağlı olan müvafiq çeklər üzrə fiskal əlamətlərdə təsvir olunan simvollar (unikal identifikator);
- nisyə satış üzrə ödəniş çekində nisyə satış üzrə ödəniləcək məbləğin və ödəniş üzrə ardıcıllığın nömrəsi, habelə satış (nisyə) çeki üzrə fiskal əlamətlərdə təsvir olunan simvollar (unikal identifikator);
- yanacaqdoldurma məntəqələri tərəfindən vergi ödəyicilərinə yanacaq kartı (talon) əsasında təqdim edilən yanacağa görə satış çekində alıcının nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı.

## Hansı növ e-kassaların istifadəsinə icazə verilir?

Azərbaycan Respublikasının ərazisində yalnız dövlət reyestrinə daxil edilmiş e-kassa modellərinin tətbiqinə icazə verilir.

Həm dövlət reyestrinə daxil edilmiş e-kassalar, həm də qeydiyyata alınmış e-kassa operatorları barədə məlumatları www.e-kassa.gov.az portalının "Reyestrə salınmış e-kassaların siyahısı" (https://e-kassa.gov.az/az/vergi-deyicileri-ucun?catID=3) və "E-kassa operatorları və kassaların stoku" (https://e-kassa.gov.az/az/vergi-deyicileri-ucun?catID=4) alt menyularından əldə etmək olar.

## E-kassanın meyarları hansılardır?

Aşağıdakı meyarlara cavab verən e-kassa əhali ilə hesablaşmaların aparılmasında istifadə edilə bilər:

- e-kassada aparılan əməliyyatların, çeklərin və onların formalaşma ardıcıllığının etibarlı uçotunu, habelə həmin məlumatların toplanması, emalı, saxlanması və internet bağlantısı yaranan kimi Dövlət Vergi Xidmətinə ötürülməsini təmin edən proqram təminatı və əməliyyat sistemləri ilə təchiz edilən;
- USB portu mövcud olan;
- Vergi Məcəlləsinin 50.8-ci maddəsində nəzərdə tutulmuş NKA çekini çap etməyə imkan verən müvafiq çap qurğusu ilə təchiz edilən;
- NKA üzrə dəyişdirilməyən zavod və ya seriya nömrəsinə malik olan;
- internet resurslarına çıxış imkanlarına (GSM, Wi-fi, Ethernet və s. vasitəsilə) malik olan.

## E-kassadan istifadənin xüsusiyyətləri hansılardır?

- E-kassa və onun tərkib hissəsi olan nəzarət mexanizmi qurğusu e-kassa istifadəçisi olan hüquqi şəxslərə və fərdi sahibkarlara e-kassa operatorları tərəfindən imzalanmış müqavilə əsasında təqdim olunur və e-kassa operatorunun təqdim etdiyi müvafiq təlimatlar əsasında istismar edilir.
- E-kassa istifadəçiləri olan hüquqi şəxslər və fərdi sahibkarlar qeyd olunan qurğuların qorunmasını təmin etməlidirlər.
- E-kassalara texniki baxış və onların təmiri, müvafiq müqavilə imzalanmaqla, e-kassa operatorları tərəfindən həyata keçirilir.
- Hüquqi şəxslər və fərdi sahibkarlar e-kassaları Dövlət Vergi Xidmətinin informasiya sistemləri bazasına müvafiq məlumatlar daxil olunduqdan sonra istifadə sahəsinə uyğun şəkildə istismar etməlidirlər.

## Nəzarət mexanizmi qurğusu (bundan sonra NMQ) nədir və nə üçün nəzərdə tutulub?

- E-kassanın tərkib hissəsi olan NMQ malların təqdim edilməsi və xidmətlərin göstərilməsi zamanı aparılan hesablaşmalar barədə məlumatların Dövlət Vergi Xidmətinin informasiya sisteminə ötürülənə qədər toplanması, emal edilməsi, saxlanması və internet bağlantısı yaranan kimi ötürülməsini, həmçinin e-kassa və e-kassa istifadəçisinin autentifikasiyasını və bu prosedurların həyata keçirilməsinə nəzarəti təmin edən qurğudur.

- NMQ Dövlət Vergi Xidmətində qeydiyyata alınmalı, həmin dövlət orqanı tərəfindən verilmiş vergi ödəyicisinin şəxsi məlumatlarını əhatə edən sertifikatla təmin olunmalı və yalnız bundan sonra e-kassalarda istifadə edilməlidir.
- Dövlət Vergi Xidmətinin və ya onun tərəfindən müsabiqə əsasında seçilən hüquqi şəxs e-kassa operatorunu NMQ ilə təmin edir. NMQ-nin verilməsi "Təhvil-təslim aktı" ilə rəsmiləşdirilir.
- NMQ üçün sertifikat 3 il müddətinə verilir və bu müddət ərzində onda olan məlumatlar Dövlət Vergi Xidmətinə ötürüldükdən sonra yeni e-kassanın quraşdırılmasına yol verilir.
- NMQ-nin sertifikat müddətinin bitməsinə 7 gün qaldıqda Dövlət Vergi Xidməti tərəfindən e-kassa operatorunun və e-kassa istifadəçisinin elektron kabinetinə bu barədə bildiriş göndərilir. NMQ-nin sertifikat müddəti bitdikdən sonra NMQ-də olan məlumatlar e-kassa operatoru tərəfindən Dövlət Vergi Xidmətinə ötürülür və yeni sertifikat yüklənir.

**Bununla yanaşı, NMQ aşağıdakıları təmin edir:**

- internet şəbəkəsinin olmadığı şəraitdə 7 gün ərzində e-kassa vasitəsilə aparılan əməliyyatlar barədə məlumatların saxlanılmasını, onların tamlığının və etibarlılığının qorunmasını;
- məlumatların kriptoqrafiya üsullarından istifadə etməklə unikal identifikatorun formalaşmasını;
- fəaliyyətə başladığı andan e-kassa çeklərinin sıra ardıcıllığının pozulmamasını;
- çekin formalaşma tarixinə nəzarət edilməsini.

NMQ internet şəbəkəsinin olmadığı şəraitdə 7 gündən sonrakı tarixə çekin formalaşmasına icazə vermir.

# E-kassanın istifadəsi hansı hallarda mümkün deyil?

**E-kassadan istifadənin mümkün olmadığı hallar aşağıdakılardır:**

- dövlət reyestrinə daxil edilmiş e-kassanın göstəriciləri dəyişdirildikdə;
- unikal identifikatora (fiskal İD) malik çeki çap etmək mümkün olmadıqda;
- e-kassa yararsız hala düşdükdə;
- e-kassanın zavod və ya seriya nömrəsi dəyişdirildikdə;
- e-kassanın zavod və ya seriya nömrəsi açıq açarın texnoloji sertifikatında göstərilən nömrə ilə uyğun gəlmədikdə;
- internet şəbəkəsinin olmadığı şəraitdə 7 gün ərzində NMQ-də olan məlumatların Dövlət Vergi Xidmətinə ötürülməsi mümkün olmadıqda;
- NMQ-də olan məlumatların dəyişdirilməsi məqsədilə hər hansı əməliyyatlar aparıldıqda;
- NMQ-nin sertifikat müddəti bitdikdə və ya yararsız hala düşdükdə.

E-kassa çeki yalnız NMQ quraşdırıldığı halda və e-kassa operatoru tərəfindən göndərilmiş PİN kod e-kassa istifadəçi tərəfindən daxil edildikdən sonra çap edilə bilər.

# E-kassanı necə əldə etmək olar?

Pul hesablaşmalarını e-kassa ilə həyata keçirməli olan vergi ödəyicisi qeydiyyatdan keçmiş e-kassa operatoruna müvafiq sənədlər təqdim etməklə müraciət etməlidir.

- Vergi ödəyicisinin sənədləri e-kassa operatoru tərəfindən yoxlanıldıqdan sonra tərəflər arasında müqavilə imzalanır və bu müqavilə əsasında e-kassanın uçota alınması üçün e-kassa operatoru tərəfindən qanunvericilikdə müəyyən edilən prosedurlar həyata keçirilir.
- E-kassa operatoru tərəfindən e-kassa vergi ödəyicisinin təsərrüfat subyektində (obyektində) quraşdırılır.
- E-kassa vergi ödəyicisi tərəfindən elektron kabinet vasitəsilə **e-kassanın qəbul aktı** təsdiq olunduqdan sonra aktivləşdirilir.

**Qeyd:** Həm dövlət reyestrinə daxil edilmiş e-kassalar, həm də qeydiyyata alınmış e-kassa operatorları barədə məlumatları **www.e-kassa.gov.az** portalının "Reyestrə salınmış e-kassaların siyahısı" və "E-kassa operatorları və kassaların stoku" alt menyularından əldə etmək olar.

# E-kassanın tətbiqi zamanı aşağıdakıları bilmək zəruridir

**QR kod (Quick Response Code) və unikal identifikator (fiskal İD) nədir və necə formalaşdırılır?**

Malın sürətli məlumat kodu olaraq xüsusi qurğular vasitəsilə oxuna bilən, hər hansı ictimai mənbəyə keçidi olan və e-kassa çekinin bütün məlumatlarını keçid mənbədə əks etdirən optik QR kod və çek üzərində NMQ tərəfindən formalaşdırılan 16-lıq say sistemi üzrə simvollardan ibarət unikal identifikator (fiskal İD) yeni çek formalarının üzərində çap olunması zəruri olan məlumatlardır.

**Açıq açarın texnoloji sertifikatı** - e-kassa və onun tərkib hissəsi olan NMQ-nin zavod nömrəsi, VÖEN, obyektin kodu, obyektin ünvanı, sertifikatın buraxılış və bitmə tarixinin e-kassa istifadəçisinə aid olduğunu təsdiqləyən və Dövlət Vergi Xidməti tərəfindən göndərilən elektron fayldır.

**Təsərrüfat subyekti (obyekti)** - malların (işlərin, xidmətlərin) təqdim edilməsinin həyata keçirildiyi, həmçinin vergi ödəyicisinin gəlirlərinin formalaşmasında iştirak edən yerdir.

**“NKA-nın qeydiyyat vərəqəsi”** - e-kassa istifadəçisinə məxsus e-kassanın vergi orqanında uçota alındığını təsdiq edən və özündə quraşdırıldığı təsərrüfat subyektinin (obyektinin) kodunu, e-kassanın markasını, zavod nömrəsini, NMQ-nin nömrəsini əks etdirən sənəddir.

**Akt** - e-kassanın uçota alınması və uçotdan çıxarılması, quraşdırılması, servis texniki xidmət göstərilməsi, habelə NMQ-nin aktivləşdirilməsi zamanı e-kassa operatoru tərəfindən Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsi portalı üzərindən qeydiyyata alınmaqla tərtib edilən sənəddir.

**Elektron kabinet** - vergi ödəyicisi kimi uçota alınma zamanı təqdim edilən ərizəyə əsasən Dövlət Vergi Xidmətinin informasiya sistemində yaradılan, gücləndirilmiş elektron imza ilə daxil olmağa imkan verən, vergi ödəyicisi ilə vergi orqanı arasında qarşılıqlı məlumat mübadiləsini təmin edən fərdi elektron səhifədir.

## E-kassa çekinin həqiqliyini necə yoxlamaq olar?

İstehlakçı tərəfindən mallar (xidmətlər) alınarkən satıcı tərəfindən ona verilmiş e-kassa çekinin həqiqiliyini yoxlamaq üçün həmin çek üzərində qeyd edilən unikal identifikator (FİKSAL İD) nömrəsini www. e-kassa.gov.az portalının əsas səhifəsindəki **“Çeki yoxla”** xidmətinin müvafiq xanasına daxil etməklə yoxlaya bilər.



## E-kassa istifadəçisi e-kassa operatoruna nə zaman müraciət etməlidir?

E-kassa istifadəçisi aşağıdakı əsas xidmətlərin təqdim olunması ilə bağlı e-kassa operatoruna müraciət edə bilər:

- e-kassanın uçota alınması;
- e-kassanın quraşdırılması;
- e-kassaya texniki dəstək göstərilməsi;
- e-kassanın təmiri və əvvəlki e-kassanın yenidən istismara verildiyi ana qədər müvəqqəti e-kassanın istifadə üçün təqdim olunması;
- e-kassanın uçotdan çıxarılması.

# E-kassaların uçota alınması hansı qaydada həyata keçirilir?

- E-kassaların uçota alınması üçün təqdim olunması e-kassa operatorları tərəfindən həyata keçirilir. Vergi ödəyicisi e-kassa əldə etmək üçün e-kassa operatoruna müraciət etməli və aşağıdakı sənədləri təqdim etməlidir:
  - VÖEN;
  - Fiziki şəxs olduqda şəxsiyyətini təsdiq edən sənədin surəti;
  - Təsərrüfat subyektinin (obyektinin) kodu.
- Vergi ödəyicisinin sənədləri yoxlanıldıqdan sonra tərəflər arasında müqavilə imzalanır.
- Bu müqavilə əsasında e-kassaların uçota alınması üçün e-kassa operatoru tərəfindən e-kassa.gov.az portalı üzərindən "NKA-nın qeydiyyata alınması haqqında Ərizə" formasının uçotla bağlı müvafiq xanalarını dolduraraq vergi orqanına göndərir.
- Ərizəyə həmçinin e-kassa istifadəçisi ilə e-kassa operatoru arasında bağlanmış müqavilənin PDF formatı əlavə edilir.
- Daxil edilmiş məlumatlar əsasında sistem tərəfindən e-kassanın quraşdırıldığı təsərrüfat subyekti (obyekti) üzrə e-kassa istifadəçisinin uçotda olub-olmaması, e-kassa barədə məlumatın Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə daxil edilib-edilməməsi, onun digər təsərrüfat subyektində qeydiyyatda olub-olmaması yoxlanılır.
- Yoxlanılan məlumatlarda kənarlaşma aşkar edilmədikdə interaktiv rejimdə Dövlət Vergi Xidmətinin elektron informasiya sistemindən e-kassa operatorunun İnternet Vergi İdarəsi portalında olan elektron kabinetinə sertifikat faylı göndərilir.
- Daha sonra e-kassa operatoru e-kassanı təsərrüfat subyektində (obyektində) quraşdırmaq üçün onun NMQ-sinə göndərilmiş sertifikat faylını yazır və bu barədə **Akt** tərtib edərək portal üzərindən Dövlət Vergi Xidmətinə təqdim edir.

- Bundan sonra e-kassanın aktivləşməsi üçün e-kassa istifadəçisi İnternet Vergi İdarəsi portalında olan elektron kabinetinə daxil olur, qeyd edilən aktın nömrəsini sistemə daxil edir və aktın məzmunu ilə tanış olduqdan sonra onu gücləndirilmiş elektron imza ilə təsdiq edir.
- E-kassa istifadəçisi gücləndirilmiş elektron imza ilə aktı təsdiq etdikdən sonra sistem tərəfindən hazırlanmış “NKA-nın qeydiyyat vərəqəsi” e-kassa istifadəçisinin elektron kabinetinə göndərilir.
- Qeydiyyat vərəqəsi e-kassa istifadəçisinin müraciəti əsasında kağız formasında da əldə edilə bilər.
- Qeydiyyat vərəqəsi təsdiqləndikdə e-kassa və onun tərkin hissəsi olan NMQ-si də aktivləşir.

## E-kassaların uçotdan çıxarılması hansı qaydada həyata keçirilir?

E-kassaların uçotdan çıxarılması e-kassa operatoru tərəfindən e-kassa istifadəçisinin müraciəti əsasında aşağıdakı prosedurlar yerinə yetirilməklə həyata keçirilir:

- İlk öncə e-kassa istifadəçisi e-kassada sonuncu növbəni bağlayır.
- E-kassa istifadəçisi e-kassanı uçotdan çıxarmaq üçün gücləndirilmiş elektron imzadan istifadə etməklə **“NKA-nın qeydiyyatdan çıxarılması haqqında Ərizə”** ilə vergi orqanına müraciət edir.
- Ərizənin təqdim edildiyi tarixə e-kassanın uçotda olduğu təsərrüfat subyektində (obyektində) operativ vergi nəzarəti tədbirlərinin keçirilməsi sistem vasitəsilə yoxlanılır.
- Əgər həmin təsərrüfat subyektində (obyektində) operativ vergi nəzarəti tədbiri keçirilirsə, istifadəçiyə tədbirin davam etdiyi müddətdə e-kassanın uçotdan çıxarılmasının mümkünsüzlüyü barədə “NKA-nın uçotdan çıxarılması barədə ərizənin icra edilməsindən imtina barədə BİLDİRİŞ” göndərilməklə əməliyyat dayandırılır.
- Ərizədə uyğunsuzluqlar aşkar edilmədikdə vergi orqanı tərəfindən e-kassa operatorunun elektron kabinetinə e-kassa istifadəçisinə məxsus e-kassanın uçotdan çıxarılması üçün zəruri tədbirlərin görülməsi barədə Bildiriş göndərilir.
- E-kassa operatoru Bildiriş daxil olduğu tarixdən 5 iş günü ərzində e-kassada quraşdırılmış NMQ-də toplanmış məlumatların tam şəkildə Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə ötürülüb-ötürülməməsini yoxlayır.
- E-kassa operatoru, zərurət yarandığı halda, toplanmış məlumatların

Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə ötürülməsini təmin edir.

- Bununla yanaşı, e-kassa operatoru mütləq qaydada NMQ-yə yazılmış sertifikat faylını silərək NMQ-ni sıfırlaşdırır.
- Qeyd olunanlardan sonra e-kassa operatoru e-kassanın uçotdan çıxarılması barədə akt tərtib edərək İnternet Vergi İdarəsi portalı vasitəsilə vergi orqanına göndərir. Bu andan etibarən e-kassa qeydiyyatdan çıxarılaraq statusu dəyişdirilir.
- Akt istifadəçinin müraciəti əsasında kağız daşıyıcıda ona verilə bilər.
- E-kassanın uçotdan çıxarılması barədə Bildiriş sistem tərəfindən hazırlanaraq e-kassa istifadəçisinin elektron kabinetinə göndərilir.
- E-kassa operatoru tərəfindən e-kassanın qeydiyyatdan çıxarılması barədə akt 5 iş günü ərzində vergi orqanına göndərilmədikdə, “NKA-nın qeydiyyatdan çıxarılması haqqında Ərizə”nin icrasından imtina edilir və bu barədə e-kassa istifadəçisinin elektron kabinetinə “NKA-nın uçotdan çıxarılması barədə ərizənin icra edilməsindən imtina barədə Bildiriş” göndərilir.
- Əgər baş vermiş yanğın nəticəsində e-kassa yararsız hala düşərsə, e-kassa istifadəçisi tərəfindən “NKA-nın qeydiyyatdan çıxarılması haqqında Ərizə”yə yanğın mühafizə şöbəsinin (bölməsinin) arayışı əlavə edilməlidir.
- E-kassa oğurlanarsa və yaxud itirilərsə, e-kassa istifadəçisi tərəfindən qeyd edilən ərizəyə müvafiq polis şöbəsinin (bölməsinin) arayışı əlavə edilməlidir.
- İtirilmə, oğurlanma və ya yanma səbəbləri seçilməklə qeydiyyatdan çıxarılmış e-kassalar barədə məlumatlar nəzarət tədbirinin keçirilməsi məqsədilə vergi orqanının operativ nəzarət strukturuna ötürülür.

# Texniki nasazlıq aşkar olunduqda e-kassa istifadəçisi nə etməlidir?

- İstismar zamanı e-kassada nasazlıqlar yarandığı halda, e-kassa istifadəçisi dərhal vergi orqanlarına və e-kassa operatoruna məlumat verməlidir.
- E-kassa istismar zamanı yararsız vəziyyətə düşdükdə, e-kassa operatoru bununla bağlı ona çağırış verildiyi andan **36 saatdan çox olmayan vaxt ərzində** e-kassanın təmirini təmin etməlidir.
- E-kassada, eləcə də onun tərkib hissəsi olan NMQ-də yaranmış nasazlığı qeyd olunan müddət ərzində aradan qaldırmaq mümkün olmadıqda aşağıdakı tədbirlər həyata keçirilməlidir:
    - E-kassa operatoru e-kassanı dərhal ehtiyat aparatla əvəz etməli, istismara yararsız e-kassa təmirə aparılan zaman e-kassa operatoru və istifadəçisi NMQ-də olan bütün məlumatların Dövlət Vergi Xidmətinə ötürülməsini təmin etməlidir.
    - E-kassa operatoru ehtiyat e-kassanın quraşdırılması üçün portal üzərindən Dövlət Vergi Xidmətinə müraciət etməlidir.
    - NMQ-nin əvəz olunmuş e-kassaya quraşdırılması üçün Dövlət Vergi Xidməti tərəfindən e-kassa operatoruna müvəqqəti sertifikat göndərilməlidir.
    - E-kassa operatoru sertifikatı müvəqqəti NMQ-yə yükləyərək aktla birlikdə e-kassa istifadəçisinə təqdim etməlidir.
    - İstismara yararsız e-kassanın təmiri mümkün olmadıqda, e-kassa operatoru öz seçiminə əsasən, ehtiyat e-kassadan istifadə edə və ya onu yeni e-kassa ilə əvəz edə bilər.

- Ehtiyat e-kassadan davamlı istifadə olunduqda e-kassa operatoru müvəqqəti sertifikatın daimi sertifikatla əvəzlənməsi üçün Dövlət Vergi Xidmətinə portal üzərindən müraciət göndərməlidir.
- E-kassa təmir edildikdən sonra e-kassa operatoru onu vergi ödəyicisinə geri qaytarmalıdır. Ehtiyat e-kassaya quraşdırılmış NMQ-dəki məlumatlar Dövlət Vergi Xidmətinə ötürülməlidir. Ehtiyat e-kassanın təmirdən qayıtmış e-kassa ilə əvəz olunması ilə bağlı proseslər aktla rəsmiləşdirilməli və bu barədə Dövlət Vergi Xidmətinə məlumat verilməlidir.
- NMQ-də yaranmış nasazlığı çağırış verildiyi andan **36 saat** ərzində aradan qaldırmaq mümkün olmadıqda, NMQ e-kassa operatoruna təqdim edilməli, e-kassa operatoru isə yoxlanılması üçün onu Dövlət Vergi Xidmətinə göndərməlidir.
- Bu halda NMQ-dəki məlumatların dəyişdirilməsi məqsədilə hər hansı əməliyyatın aparılıb-aparılmadığı Dövlət Vergi Xidməti tərəfindən yoxlanılır.

## NMQ hansı halda yenisi ilə əvəz edilir?

- E-kassanın tərkib hissəsi olan NMQ yararsız hala düşdükdə yenisi ilə əvəz edilir.
- E-kassaların tərkib hissəsi olan NMQ-nin əvəz edilməsi e-kassa operatorları tərəfindən həyata keçirilir.
- Bunun üçün e-kassa operatoru NMQ-nin yenisi ilə əvəz edilməsi üçün portaldan Dövlət Vergi Xidmətinə ərizə ilə müraciət edir.
- Dövlət Vergi Xidməti tərəfindən ərizə yoxlanılır və yeni NMQ üçün e-kassa operatoruna sertifikat göndərilir.
- E-kassa operatoru sertifikatı yeni NMQ-yə yükləyərək aktla birlikdə e-kassa istifadəçisinə təqdim edir.
- E-kassa istifadəçisi elektron kabinetdən aktın nömrəsini daxil edərək NMQ-ni aktivləşdirir. Bu zaman Dövlət Vergi Xidməti tərəfindən yeni NMQ-nin aktivləşməsi və əvvəlki NMQ-nin passivləşdirilməsi barədə e-kassa istifadəçisinə məlumat göndərilir.
- NMQ əvəz edildikdən sonra passivləşdirilmiş və Dövlət Vergi Xidmətinə məlumatları ötürməmiş köhnə NMQ-də hər hansı kassa əməliyyatlarının aparılması qadağandır.
- Köhnə NMQ uçotdan çıxarılmalıdır.

# Məsuliyyət tədbirləri

**Vergi orqanında uçotda olmayan şəxslərlə (əhali ilə) pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına, yəni**

- e-kassalar tətbiq olunmadan (e-kassa quraşdırılmadan), vergi orqanlarında uçota alınmamış və ya texniki tələblərə cavab verməyən, o cümlədən Vergi Məcəlləsinin 50.8-ci maddəsində sadalanan tələblərə cavab verməyən çek təqdim edən e-kassalardan istifadə etməklə əhali ilə pul hesablaşmalarının aparılmasına,
- alıcıya təqdim edilməli çekin verilməməsinə və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə verilməsinə,
- POS-terminalların quraşdırılması məcburi olan obyektlərdə POS-terminalların quraşdırılmaması və
- POS-terminallar quraşdırılmış obyektlərdə nağdsız ödənişlərin qəbulundan imtina edilməsinə və ya
- e-kassadan istifadə edilməsi dayandırıldıqda əhali ilə pul hesablaşmalarının qeydiyyatının aparılması qaydalarının pozulmasına görə **vergi ödəyicisinə təqvim ili ərzində** belə hallara
  - birinci dəfə yol verildikdə **1.000** manat məbləğində;
  - ikinci dəfə yol verildikdə **3.000** manat məbləğində;
  - üç və daha çox yol verildikdə **6.000** manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

**Qeyd:** Bu **maliyyə sanksiyası** POS-terminalların quraşdırılması məcburi olan obyektlərdə POS-terminalların quraşdırılmaması və POS-terminallar quraşdırılmış obyektlərdə nağdsız ödənişlərin qəbulundan imtina edilməsi üzrə pozuntu, e-kassa tətbiq edilmədən əhali ilə pul hesablaşmalarının aparılması qaydalarının pozulması ilə eyni vaxtda baş verdikdə qeyd edilən maliyyə sanksiyası **bir dəfə** tətbiq edilir.

**E-kassa operatorları** qanunvericiliyin pozulmasına görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

# ƏLAQƏ VASİTƏLƏRİ

1. DÖVLƏT VERGİ XİDMƏTİNƏ ONLAYN MÜRACİƏT
https://www.taxes.gov.az/az/page/dovlet-vergi-xidmetine-muraciet

2. 195 ÇAĞRI MƏRKƏZİ
https://e-kassa.gov.az/az/195-1

3. E-KASSA OPERATORLARI İLƏ ƏLAQƏ

E-kassa operatoru kimi qeydiyyatdan keçmiş rezident hüquqi şəxslərin əlaqə məlumatlarını www.e-kassa.gov.az portalının "Əlaqə" bölməsinin "E-kassa operatorları ilə əlaqə" alt menyularından əldə etmək olar (https://e-kassa.gov.az/az/operatorlarla-elaqe).

# MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ BARƏDƏ

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı **“Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş”** adlı bukletdən əldə edə bilərsiniz.

VERGİLƏRƏ AİD NƏŞRLƏR

195-1
AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az
**www.taxes.gov.az**